**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

20 iyun 2026-cı il | №22 (9176) | www.muallim.edu.az | muallim@media.edu.az

# BU GÜN MƏKTƏBLİLƏRİN RESPUBLİKA İDMAN OLİMPİADASINA START VERİLƏCƏK

## Olimpiadada 2000-dən çox şagird yarışacaq

Ölkədə ilk dəfə keçiriləcək Məktəblilərin Respublika İdman Olimpiadasında 2019 məktəbli iştirak edəcək.

Bu barədə "Azərbaycan müəllimi"nin sorğusuna cavab olaraq Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Elm və Təhsil Nazirliyi və Gənclər və İdman Nazirliyinin birgə təşkilatçılığı ilə keçiriləcək olimpiada müxtəlif idman növləri üzrə məktəbliləri bir araya gətirəcək.

Olimpiadada iştirak edəcək məktəblilər 11-16 yaş aralığını əhatə edir. Yarışlar ağırlıqqaldırma, atletika, badminton, basketbol, boks, cüdo, sərbəst güləş, yunan-Roma güləşi, bədii gimnastika, stolüstü tennis, taekvondo və velosiped idmanı növləri üzrə təşkil olunacaq.

Layihənin əsas məqsədi məktəblilər arasında idmana marağın artırılması, sağlam həyat tərzinin təşviqi və istedadlı idmançıların üzə çıxarılmasına dəstək verməkdir.




## Prezident məktəbəqədər təhsilə dair Fərman imzalayıb



Prezident İlham Əliyev məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modelinin tətbiq edilməsi haqqında Fərman imzalayıb.

Fərmana əsasən məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli tətbiq ediləcək.

Fərmana görə məktəbəqədər təhsil sahəsində valideyn-dövlət-özəl əməkdaşlığına əsaslanan maliyyələşmə modeli üzrə dövlət dəstəyinin maliyyələşdirilməsi müvafiq illərin dövlət büdcəsində Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üçün nəzərdə tutulmuş məqsədli vəsait hesabına təmin edilməlidir.

## Böyük Qayıdışa dair I Dövlət Proqramı uğurla icra olunur



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə iyunun 17-də Ağdərə şəhərində Qərargahın növbəti iclası keçirilib.

Bax səh.2

## İDEYADAN STRATEJİ FƏALİYYƏT MƏRHƏLƏSİNƏ

### Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" III konqres-festival keçirilib



Bax səh.3

## SERTİFİKATLAŞDIRMA: DAVAMLI İNKİŞAF

### Şərqi Zəngəzur müəllimləri yüksək nəticə göstəriblər



Bax səh.5

### Ümumtəhsil məktəblərində "Son zəng" çalındı

Bax səh.4

### 3 universitetimiz TOP 800-ə daxil olub

Bax səh.6

### Qarabağ Universitetində Oksford standartlı yeni proqram yaradılıb

Bax səh.7

### 4 şagirdimiz Avropa Fizika Olimpiadasından medalla qayıtdı

Bax səh.8

# Böyük Qayıdışa dair I Dövlət Proqramı uğurla icra olunur

## Əlaqələndirmə Qərargahının növbəti iclası Ağdərə şəhərində keçirilib





**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının rəhbəri Samir Nuriyevin sədrliyi ilə iyunun 17-də Ağdərə şəhərində Qərargahın növbəti iclası keçirilib.**




AZƏRTAC xəbər verir ki, iclasda çıxış edən Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ölkənin hərtərəfli inkişafının əsasını təşkil etdiyini bildirib. O vurğulayıb ki, son dövrlərdə müxtəlif sahələr, o cümlədən kənd təsərrüfatı üzrə qəbul edilən strateji sənədlər, dövlət proqramları və həyata keçirilən islahatlar ölkənin sosial-iqtisadi inkişafının vahid yanaşma əsasında təmin olunduğunu bir daha təsdiqləyir.

Qərargah rəhbəri vurğulayıb ki, Böyük Qayıdış prosesi milli inkişaf strategiyasının əsas istiqamətlərindən biri olmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi, sosial və institusional sisteminə tam inteqrasiyasını nəzərdə tutur. Ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri nəticəsində zəruri infrastruktur qurulub. Hazırda əsas prioritet yaradılmış infrastruktur bazası üzərində dayanıqlı iqtisadi inkişafın təmin olunması, məskunlaşmanın iqtisadi və sosial dayaqlarının gücləndirilməsidir.

Qeyd olunub ki, Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası yekunlaşmaq üzrədir və hazırda Böyük Qayıdışa dair II Dövlət Proqramının hazırlanması istiqamətində intensiv iş aparılır.

Samir Nuriyev işğaldan azad edilmiş ərazilərin aqrar potensialının Böyük Qayıdış prosesinin iqtisadi dayanıqlılığının təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırıb. Onun sözlərinə görə, torpaq və su ehtiyatlarından səmərəli istifadə, aqrar istehsalın genişləndirilməsi, istehsal və emal imkanlarının yaradılması, eləcə də kənd təsərrüfatı sahəsində dayanıqlı məşğulluğun təmin olunması qarşıdakı dövrün əsas vəzifələrindəndir. Bu baxımdan "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026—2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində nəzərdə tutulan tədbirlərin Böyük Qayıdış üzrə həyata keçirilən fəaliyyətlərlə əlaqələndirilməsi vacibdir.

Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma əhalinin məşğulluğunun təmin edilməsindən, iş yerlərinin yaradılmasından və iqtisadi fəaliyyət imkanlarının genişləndirilməsindən asılıdır. Bu baxımdan kənd təsərrüfatı da daxil olmaqla, müxtəlif sahələrdə məşğulluq imkanlarının artırılması, peşə bacarıqlarının inkişaf etdirilməsi, sahibkarlıq təşəbbüslərinin dəstəklənməsi və iqtisadi fəallığın yüksəldilməsi istiqamətində işlərin davam etdirilməsi xüsusi əhəmiyyət daşıyır.

İclasda, həmçinin ekoloji dayanıqlılığın təmin edilməsi və su ehtiyatlarının idarə olunması məsələlərinə toxunulub. Bildirilib ki, təbii ehtiyatlardan səmərəli istifadə, ekosistemlərin bərpası və torpaq ehtiyatlarının qorunması uzunmüddətli inkişafın mühüm şərtlərindəndir. İşğaldan azad edilmiş ərazilərdə su təsərrüfatı obyektlərinin bərpası ilə yanaşı, su ehtiyatlarının müasir səviyyədə və qənaətli idarə olunması, müxtəlif sahələrin suya olan tələbatının balanslı şəkildə ödənilməsi və ölkənin su təhlükəsizliyinin möhkəmləndirilməsi qarşıda duran əsas vəzifələr sırasındadır.

Daha sonra iclasın gündəliyinə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqlardan səmərəli istifadə və aqrar istehsalın təşkili, əhalinin məşğulluğunun təmin edilməsi, ekoloji dayanıqlılığın gücləndirilməsi və su ehtiyatlarının idarə olunması istiqamətində görülən işlər barədə məruzələr dinlənilib.

**İclasın yekununda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müəyyənləşdirilmiş strateji hədəflərə uyğun olaraq, işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi sosial-iqtisadi inkişaf prosesinə inteqrasiyasının sürətləndirilməsinin, Böyük Qayıdış prosesinin dayanıqlılığının təmin olunmasının və əhalinin rifahının yüksəldilməsi istiqamətində fəaliyyətin ardıcıl şəkildə davam etdirilməsinin vacibliyi bir daha iclas iştirakçılarının diqqətinə çatdırılıb.**

# Ölkələrimiz arasında təhsil və elm sahələrində əlaqələr inkişaf edir



**İyunun 18-də Azərbaycan Milli Məclisi və Rusiya Federal Məclisi Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 24-cü iclası keçirilib.**

## Azərbaycan Milli Məclisi və Rusiya Federal Məclisi Parlamentlərarası Əməkdaşlıq Komissiyasının 24-cü iclası olub



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclis sədrinin birinci müavini, Azərbaycan tərəfdən Komissiyanın həmsədri Əli Əhmədov ölkələrimiz arasında xalqlarımızın mənafelərinə xidmət edən mehriban qonşuluq, dostluq və əməkdaşlıq ənənələrinin mövcud olduğunu qeyd edib. O, ikitərəfli münasibətlərdə yüksək səviyyəli təmasların, dövlət qurumları arasında qarşılıqlı əlaqələrin önəmli rol oynadığını söyləyib.

Milli Məclis sədrinin birinci müavini bildirib ki, Azərbaycan-Rusiya münasibətlərində Azərbaycan Milli Məclisi ilə Rusiya Federal Məclisi arasında Əməkdaşlıq üzrə Parlamentlərarası Komissiya xüsusi yer tutur. Öz fəaliyyəti dövründə komissiya vacib platforma kimi özünü təsdiqləyib. O, parlamentlərarası əlaqələrin gücləndirilməsinin və təcrübə mübadiləsinin parlament fəaliyyətinin səmərəliliyinin artırılmasına və ölkələr arasında əməkdaşlığın daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.

Əli Əhmədov ölkələrimiz arasında əməkdaşlıq çərçivəsində səhiyyə, təhsil və elm sahələrində əlaqələrin hərtərəfli inkişaf etdiyini bildirib. Bu müzakirələrin parlamentlərarası dialoqun daha da inkişaf etdirilməsində, humanitar əməkdaşlığın gücləndirilməsində, elmi və təhsil sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsində və səhiyyə sahəsində əməkdaşlığın dərinləşdirilməsində önəmli rol oynayacağını vurğulayıb.

Rusiya Federal Məclisi Federasiya Şurası sədrinin birinci müavini, Rusiya tərəfindən Komissiyanın həmsədri Andrey Yatskin çıxışında deyib ki, parlamentlərarası əməkdaşlıq iki ölkə arasında dostluq və müttəfiqlik münasibətlərinin mühüm istiqamətlərindən biridir. O, Azərbaycan ilə Rusiya arasında parlamentlərarası əməkdaşlığın davamlı xarakterinin əhəmiyyətini qeyd edib və tədbirin təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib. Həmsədr gündəliyə daxil edilmiş məsələlərdən danışaraq səhiyyə və təhsil sahələrində əməkdaşlığın humanitar əlaqələrin inkişafı baxımından əhəmiyyətini, bu istiqamətlərdə birgə fəaliyyətin genişləndirilməsinin vacibliyini vurğulayıb.

Sonra komissiyanın iclasında Azərbaycan Milli Məclisi ilə Rusiya Federal Məclisi arasında əməkdaşlıq kontekstində parlament demokratiyasının inkişafı, iki ölkə arasında səhiyyə və tibb kadrlarının hazırlanması sahəsində əməkdaşlıq, elm və təhsil sahəsində əməkdaşlığın perspektivləri mövzularında müzakirələr aparılıb.

Müzakirələrdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Səhiyyə komitəsinin üzvü Anatoliy Rafailov, Elm və təhsil komitəsinin üzvü Bəxtiyar Əliyev, Azərbaycan Respublikası səhiyyə nazirinin müavini İlqar Qasımov, elm və təhsil nazirinin müavini Firudin Qurbanov, Federasiya Şurasının Elm, təhsil və mədəniyyət komitəsi sədrinin birinci müavini İlyas Umaxanov, Sosial siyasət komitəsinin üzvü Yevgeniya Lamonova, Dövlət Dumasının reqlamenti və fəaliyyətinin tənzimlənməsi üzrə Komissiyasının sədri Viktor Pinski, habelə videokonfrans vasitəsilə iclasa qoşulan Rusiya səhiyyə nazirinin müavini Oleq Salaqay, elm və ali təhsil nazirinin müavini Konstantin Moqilevski, Sankt-Peterburq Dövlət Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru vəzifəsini icra edən Konstantin Malkovski çıxış edərək gündəlikdəki məsələlər barədə fikirlərini açıqlayıblar.

Tədbirdə Milli Məclislə Federal Məclis arasında Əməkdaşlıq üzrə Parlamentlərarası Komissiyanın növbəti — 25-ci iclası ilə bağlı təşkilati məsələlərə də baxılıb.

**Gündəlikdəki məsələlərin müzakirəsindən sonra Azərbaycan Respublikası Milli Məclisi və Rusiya Federasiyası Federal Məclisi parlamentlərarası əməkdaşlıq komissiyasının 24-cü iclası başa çatıb.**

# İDEYADAN STRATEJİ FƏALİYYƏT MƏRHƏLƏSİNƏ

## Naxçıvanda "Qərbi Azərbaycana qayıdış" III konqres-festival keçirilib

**İyunun 18-də Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə "Qərbi Azərbaycana qayıdış" III konqres-festivalı öz işinə başlayıb.**









Konqres-festivalın iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində ucaldılan abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri düzülüb, Ulu Öndərin xatirəsi ehtiramla yad edilib.

Ordubad şəhərində "Qərbi Azərbaycana qayıdış" festival-konqresinin rəsmi açılış mərasimi keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Dövlət Universitetinin təqdimatında Qərbi Azərbaycanın tarixi və mədəni irsinə həsr olunmuş bədii kompozisiya və I və II "Qərbi Azərbaycana Qayıdış" konqres-festivallarını əks etdirən videoçarx nümayiş olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov çıxış edərək Qərbi Azərbaycan mövzusunun Azərbaycan xalqının tarixi yaddaşı, milli kimliyi və mənəvi irsi ilə ayrılmaz şəkildə bağlı olduğunu bildirib.

Vurğulayıb ki, bu məsələyə dövlət səviyyəsində daim böyük diqqət göstərən Ümummilli Liderimiz Qərbi Azərbaycandan deportasiya olunmuş soydaşlarımızın taleyini hər zaman diqqətdə saxlayıb, onların hüquqlarının müdafiəsini mühüm vəzifələrdən biri kimi müəyyən edib. Bu gün həmin siyasi kurs uğurla davam etdirilir. Müzəffər Ali Baş Komandanımızın müdrik siyasəti və rəhbərliyi, Azərbaycan xalqının birliyi və qəhrəman oğullarımızın şücaəti ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpa edilməsi, torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin tam suverenliyinin təmin edilməsi xalqımızın tarixində yeni bir mərhələ açıb. Bu şanlı qələbələr Azərbaycan dövlətinin gücünü, xalqımızın iradəsini və milli birliyini bütün dünyaya nümayiş etdirib.

Məhz yeni reallıqlar şəraitində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Qərbi Azərbaycan məsələsini milli gündəliyin mühüm istiqamətlərindən biri kimi müəyyən edib. Bu istiqamətdə aparılan tədqiqatlar, nəşr olunan elmi əsərlər, toplanan arxiv materialları, folklor nümunələri və etnoqrafik irs nümunələri təkcə keçmişimizin öyrənilməsinə deyil, həm də gələcək nəsillərin milli yaddaşının möhkəmləndirilməsinə xidmət edir. Səlahiyyətli nümayəndə Qərbi Azərbaycana Qayıdış III Konqres-Festivalının tariximizin öyrənilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, elmi əməkdaşlığın genişləndirilməsi və gənc nəslin tarixi yaddaşının gücləndirilməsi baxımından uğurlu nəticələrlə yadda qalacağına əminliyini bildirib, tədbirin bütün iştirakçılarına uğurlar arzulayıb, konqres-festivalın işinə müvəffəqiyyətlər diləyib.

Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev çıxışında Qərbi Azərbaycan mövzusunun ölkəmizin təhsil və elmi sahələrdə əsas mövzulardan birinə çevrildiyini diqqətə çatdıraraq bu istiqamətdə Qərbi Azərbaycan İcmasının, eləcə də elm müəssisələrinin, xüsusilə Naxçıvan Dövlət Universitetinin rolunu xüsusi qeyd edib. Nazir vurğulayıb ki, Qərbi Azərbaycan mövzusu ideyadan strateji fəaliyyət mərhələsinə keçib. Ölkə başçısının məqsədyönlü siyasəti nəticəsində Qərbi Azərbaycana qayıdışla bağlı sistemli təşkilatlanma, maarifləndirmə və araşdırma tədbirləri həyata keçirilir. Emin Əmrullayev Elm və Təhsil Nazirliyi tərəfindən hazırlanan resurslar və tədris vəsaitlərinin ictimai müzakirəyə açıq olduğunu vurğulayıb, elmi ictimaiyyəti, ali təhsil müəssisələri və alimləri bu prosesdə daha fəal iştiraka və öz töhfələrini verməyə çağırıb.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov konqres-festivalın təşkil olunmasında əməyi keçən bütün təşkilatlara minnətdarlıq edərək bildirib ki, Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı ölkəmizin xarici siyasət konsepsiyasının mühüm prioritet istiqamətlərindən biridir. Ölkəmiz sülh gündəliyinə sadiqdir və bu istiqamətdə üzərinə düşən öhdəlikləri yerinə yetirir. Bu prosesin əsas hədəflərindən biri də Qərbi Azərbaycandan olan soydaşlarımızın doğma torpaqlarına qovuşmasıdır. Bu baxımdan "Qərbi Azərbaycana qayıdış" konsepsiyası öz yurdlarından qovulmuş yüz minlərlə azərbaycanlının ləyaqətli, təhlükəsiz və hüquqi əsaslarla geri qayıtmasını özündə əks etdirən prioritet məsələdir. Bu mənada Azərbaycanın ortaya qoyduğu yanaşma siyasi məqsədlərdən daha çox humanitar mahiyyət daşıyır.





Ziyafət Əsgərov vurğulayıb ki, bu gün Azərbaycan və Ermənistan arasında faktiki olaraq yeni münasibətlər mərhələsinin formalaşması üçün imkanlar yaranıb. Hüquqi baxımdan hələ həllini gözləyən məsələlər mövcuddur. Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması vacib şərt olaraq qalır. Ermənistan rəhbərliyi bu istiqamətdə referendum keçiriləcəyini bəyan edib. Belə olduğu təqdirdə, Azərbaycan və Ermənistan arasında siyasi, iqtisadi və humanitar əlaqələrin inkişafı üçün yeni imkanlar yaranacaq. Əsas məqsəd Cənubi Qafqazda uzunmüddətli sülhün və sabitliyin təmin olunması, onilliklər boyu davam edən qarşıdurmalara son qoyulmasıdır. Azərbaycan milli maraqlarını rəhbər tutaraq, baş verən proseslərə uyğun şəkildə siyasətini davam etdirəcək.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxışında qeyd edib ki, Vətən müharibəsində əldə etdiyimiz Şanlı Zəfər milli özünüdərkimizin, tarixi ədalətə inamımızın və dövlətçilik iradəmizin təntənəsi oldu. Bu zəfər yalnız işğal altında olan torpaqlarımızın azad edilməsini təmin etmədi, eyni zamanda xalqımızın tarixi yaddaşında yaşayan bir çox məsələlərin daha geniş müstəvidə həllində yeni imkanlar yaratdı. Məhz zəfərdən sonra Qərbi Azərbaycana qayıdış ideyası da Azərbaycan cəmiyyətinin əsas milli ideyalarından birinə çevrildi. Buna görə də bu gün burada sadəcə bir tədbirin iştirakçısı kimi deyil, tarixi yaddaşımızı yaşadan, milli kimliyimizi qoruyan və gələcək nəsillərə ötürən böyük bir ideyanın daşıyıcıları kimi toplaşmışıq. Gənclərin bu prosesdə fəal iştirakı böyük əhəmiyyət daşıyır. Çünki tarixi yaşadan, yaddaşı yaşadan və onu gələcəyə daşıyan məhz gənc nəsillərdir. Onların milli mənəvi dəyərlərə bağlı, tarixini dərindən bilən və dövlətçilik ənənələrinə sadiq vətəndaşlar kimi yetişməsi hər birimizin ortaq məqsədidir.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti İsa Həbibbəyli konfransın işinə uğurlar arzulayaraq Qərbi Azərbaycan mövzusuna həsr olunmuş tədbirin məhz XX əsrin əvvəllərində qanlı hadisələrdən ən çox təsirlənmiş bölgələrdən biri olan Naxçıvanda və Ordubadda keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb. Vurğulayıb ki, bu, bir tərəfdən tarixi hadisələrin obyektiv şəkildə dəyərləndirilməsi və gələcək nəsillərə çatdırılması, digər tərəfdən isə gənclərin müstəqil dövlətçilik, azərbaycançılıq və vətənpərvərlik ruhunda tərbiyə olunması baxımından mühüm rol oynayır. İsa Həbibbəyli qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində qazanılan tarixi Zəfər regionda yeni siyasi reallıqlar yaradıb, Azərbaycanın milli maraqlarının təmin olunması istiqamətində yeni mərhələnin əsasını qoyub. "Qərbi Azərbaycana qayıdış" ideyası əsasında müəyyənləşdirilən konsepsiyanın irəli sürülməsi də Azərbaycanın bir daha sülh və insanların ləyaqətli həyat şəraitində yaşamasının tərəfdarı olmasını təsdiq edir.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz Ələkbərli çıxış edərək vurğulayıb ki, bölgədə sülh şəraitində həyatı davam etdirməyin yeganə yolu burada Azərbaycanın yaratdığı yeni reallıqlarla hesablaşmaqdır. Bu reallıqlardan biri də ilkin mərhələdə, Qarabağ münaqişəsinin ilk mərhələsində və bu münaqişənin tərkib hissəsi kimi öz doğma ocaqlarından qovulmuş 300 min azərbaycanlı qaçqının və onların övladlarının geriyə qayıdış hüququnun tanınması və təmin edilməsidir. Azərbaycanla Ermənistan arasında bağlanacaq sülh sazişinin paraflanması, birgə bəyannamənin imzalanması nəhayət bölgəyə sülhün gəlməsinə inamı artırıb. Birgə yaşayışın yeganə yolu isə hər bir insanın doğulub boya başa çatdığı ərazilərə qayıdış hüququnun tanınmasından və təmin edilməsindən keçir.Bu baxımdan, bu cür tədbirlərin məhz burada keçirilməsi həm də qarşı tərəfə ünvanlanan mühüm bir mesajdır.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü Mahirə Hüseynova festival-konqresin maarifləndirmə və yaddaşı təzələmək baxımından önəminə toxunaraq bildirib ki, Qərbi Azərbaycana Qayıdış Konsepsiyası çərçivəsində həyata keçirilən bu mötəbər tədbir öz mahiyyəti və verəcəyi mesajlarla xüsusi əhəmiyyət daşıyır. Tədbirin keçirildiyi məkan da rəmzi məna daşıyır. Qədim Ordubad Zəngəzur dəhlizi üzərində yerləşən, strateji əhəmiyyətə malik bölgədir.

Bu ərazi həm Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə birləşdirəcək nəqliyyat xəttinin, həm də regionun inkişaf perspektivlərinin mühüm tərkib hissəsidir. Mahirə Hüseynova əminliklə ifadə edib ki, yaxın gələcəkdə Zəngəzur dəhlizinin açılması ilə bu bölgə yeni inkişaf mərhələsinə qədəm qoyacaq. Ədalətin bərpası və "Qərbi Azərbaycana qayıdış" ideyası öz real nəticələrini verəcək, xalqımız öz tarixi yurdlarına qovuşacaq.

Türkiyənin İğdır Universitetinin rektoru Ekrem Gürel qeyd edib ki, Qərbi Azərbaycana qayıdış missiyası yalnız coğrafi bir həsrətin və ya keçmişə dönüş istəyinin ifadəsi deyil, ədalətin, tarixi həqiqətlərin və nəsillər boyu yaşadılmış mədəni irsin öz haqqına qovuşdurulması mübarizəsidir. Qarabağda əldə olunan Zəfərdən sonra doğma yurdlarına həsrət qalan soydaşlarımızın sülh yolu ilə və hüquqi əsaslarla geri dönüş mübarizəsi bütün Türk dünyasının ortaq və haqlı mübarizəsidir. Konqres-festivalın sosiologiyadan tarixə, hüquqdan beynəlxalq münasibətlərə qədər geniş bir sahədə qayıdış ideyasının akademik əsaslarını formalaşdırdığını qeyd edən rektor İğdır Universiteti olaraq Qərbi Azərbaycan mədəniyyətinin, folklorunun və tarixi həqiqətlərinin dünyaya çatdırılması istiqamətində hər cür akademik əməkdaşlığa və ortaq fəaliyyətə hazır olduğunu vurğulayıb.

Sonra Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının "Qərbi Azərbaycan" layihəsinin təqdimatı izlənilib.

Bədii hissə ilə davam edən tədbirə Qərbi Azərbaycanın zəngin folklorunu, musiqi ənənələrini və milli-mənəvi dəyərlərini özündə əks etdirən konsert proqramı təşkil edilib.

Bədii hissənin ardınca Qərbi Azərbaycana həsr olunmuş sərgilərə baxış olub. Ordubadın qədim məhəllələri boyunca qurulan pavilyon və stendlərdə əslən Qərbi Azərbaycandan olan və muxtar respublikada yaşayan soydaşlarımız öz doğma yurd yerlərinin adət-ənənələri, mədəniyyəti, folklor nümunələri və kulinariyasını nümayiş etdiriblər.

Müasir texnologiyalarla ənənəvi sənət nümunələrini bir araya gətirən ekspozisiyalar iştirakçılara Qərbi Azərbaycanın keçmişini, mədəniyyətini və həyat tərzini yaxından tanımaq imkanı yaradıb.

Azərbaycan aşıq sənətinin qədim ənənələrini yaşadan ustad aşıqların ifasında dastanlar və xalq musiqisi nümunələri təqdim olunub. Həmçinin görkəmli rəssam Mirzə Qədim İrəvaninin yaradıcılığını əks etdirən sənət nümunələri nümayiş olunub, onun Azərbaycan təsviri sənətinə verdiyi töhfələr təqdim edilib. Xalça sərgisində isə Qərbi Azərbaycan xalçaçılıq məktəbinin ənənələri, qədim ornamentləri və əl işləri sərgilənib.

Qərbi Azərbaycanın tarixi, təbiəti, milli-mədəni dəyərləri, eləcə də bölgənin tarixi abidələrini və maddi-mədəni irsini əks etdirən rəsm sərgiləri də maraqla qarşılanıb.

Festival iştirakçıları Qərbi Azərbaycan florası, kulinariyası, qədim yurd yerlərimizin tarixi, mədəniyyəti və ictimai həyatı ilə bağlı kitab, jurnal, qəzet sərgilərinə də baxıblar.

Konqres-festival Qərbi Azərbaycanın tarixi, mədəni irsi və milli-mənəvi dəyərlərinə həsr olunmuş 8 istiqamət üzrə plenar iclas və panel müzakirələrlə öz işini davam etdirib.

# "SON ZƏNG"DƏN YENİ VƏ MƏSULİYYƏTLİ MƏRHƏLƏYƏ...








## Elm və təhsil naziri "Son zəng" tədbirində iştirak edib

**İyunun 13-də elm və təhsil naziri Emin Əmrullayev Gəncə şəhəri Məhəmməd Hadi adına 10 nömrəli tam orta ümumtəhsil məktəbində keçirilən "Son zəng" tədbirində iştirak edib.**

Tədbirdə Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə-Daşkəsən Regional Təhsil İdarəsinin müdiri Elçin Kərimov, müəllimlər, valideynlər və şagirdlər iştirak ediblər.

"Son zəng" tədbiri Dövlət Himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Çıxış edən elm və təhsil naziri Emin Əmrullayev məzunları təbrik edərək bildirib ki, "Son zəng" məktəb həyatının başa çatması ilə yanaşı, gənclərin həyatında yeni və məsuliyyətli mərhələnin başlanğıcını ifadə edir. Nazir qeyd edib ki, bugünkü məzunlar gələcəyin tələbələri, mütəxəssisləri və ölkənin inkişafına töhfə verəcək vətəndaşlarıdır. Emin Əmrullayev məzunlara gələcək həyat yollarında düzgün seçimlər etməyi və cəmiyyət üçün faydalı vətəndaş kimi yetişməyi arzulayıb.

Nazir həmçinin şagirdlərlə səmimi söhbət apararaq onların gələcək təhsil və karyera planları ilə maraqlanıb.

Tədbirdə çıxış edən Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov məzunları təbrik edərək onlara gələcək həyat yollarında uğurlar arzulayıb, ölkənin inkişafında savadlı və vətənpərvər gənclərin rolunu vurğulayıb.

Rəsmi hissədən sonra şagirdlərin hazırladıqları ədəbi-bədii kompozisiyalar, musiqi və rəqs nömrələri təqdim olunub. Tədbir məzunlarla xatirə şəkillərinin çəkilməsi ilə yekunlaşıb.



## Emin Əmrullayev azad Kəlbəcərin ilk məzununun "Son zəng" tədbirində

İyunun 13-də elm və təhsil naziri Emin Əmrullayev Kəlbəcər rayonu B.Cəfərov adına 1 nömrəli tam orta ümumtəhsil məktəbində keçirilən "Son zəng" tədbirində iştirak edib.

Nazir məktəbin ilk və yeganə məzunu Nəzrin Atakişiyevanı məzun olması münasibətilə təbrik edib, ona gələcək təhsil həyatında uğurlar arzulayıb.

Tədbir zamanı işğaldan azad edilmiş ərazilərdə təhsilin bərpası istiqamətində görülən işlərdən, Kəlbəcərdə formalaşan yeni təhsil mühitindən danışılıb.

Tədbir şagirdlərin ifasında hazırlanmış maraqlı "Son zəng" proqramı ilə yekunlaşıb.



## Ümumtəhsil məktəblərində "Son zəng" çalındı

İyunun 13-də ölkəmizin ümumi təhsil müəssisələrində "Son zəng" tədbirləri keçirilib.

"Son zəng" tədbirlərində elm və təhsil nazirinin müavinləri Firudin Qurbanov və Həsən Həsənli, nazirliyin Aparat rəhbəri Mətin Kərimli, Aparat rəhbərinin müavinləri Fərzəli Qədirov, Tural Ayvazlı, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin direktoru Eşqi Bağırov, Təhsilin İnkişafı Fondunun sədri Nicat Məmmədli, elm və təhsil nazirinin müşavirləri Rüstəm Ağayev, Nizami Yusifli, nazirliyin və tabe qurumların struktur bölmə rəhbərləri, yerli icra hakimiyyətlərinin nümayəndələri, məzunlar, şəhid ailələrinin üzvləri və qazilər, ziyalılar, müəllimlər və valideynlər iştirak ediblər.

Tədbirlərdə məktəb məzunlarının iştirakı ilə kompozisiyalar və maraqlı proqram nümayiş etdirilib.

Tədbir iştirakçıları məzunları təbrik edib, onlara uğurlar arzulayıblar.













# ÖLKƏ TARİXİNDƏ İLK








## 3 universitetimiz TOP 800-ə daxil olub

**“Quacquarelli Symonds” (QS) beynəlxalq reytinq agentliyi tərəfindən “QS dünya universitetləri reytinqi”nin nəticələri açıqlanıb.**

Nəticələrə əsasən, ölkə tarixində ilk dəfə 3 universitetimiz sözügedən reytinqin TOP 800-lüyündə yer alıb. Eyni zamanda TOP 1000-də təmsil olunan universitetlərimizin sayı 6-dan 7-yə yüksəlib. Ümumilikdə isə reytinqdə yer alan Azərbaycan universitetlərinin sayı 10-a çatıb.

Bakı Dövlət Universiteti 123 pillə irəliləyərək dünyada 565-ci yerdə qərarlaşıb. Azərbaycan Dövlət İqtisad Universiteti 801—850 aralığından 634-cü yerə, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti isə 851—900 aralığından 711—720 aralığınadək yüksəlib.

Bununla yanaşı, Azərbaycan Texniki Universiteti, Xəzər Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Memarlıq və İnşaat Universiteti və ADA Universiteti mövqelərini yaxşılaşdıraraq sözügedən reytinqdə irəliləyiblər. Sumqayıt Dövlət Universiteti öz mövqeyini qoruyub saxlayıb, Azərbaycan Dövlət Pedaqoji Universiteti isə sözügedən reytinqə ilk dəfə daxil olub.

Sözügedən reytinqdə Azərbaycan universitetlərinin sayı Cənubi Qafqaz regionunun digər ölkələrindən reytinqə daxil olan universitetlərin toplam sayından 2.5 dəfə çoxdur.

Qeyd edək ki, 2025-ci ilədək Azərbaycan universitetləri dünya reytinqlərində TOP 800-lükdə təmsil olunmayıb. 2025-ci ildə ilk dəfə 1 universitetimiz TOP 800-ə daxil olub, 2026-cı ildə isə onların sayı 3-ə çatıb.

Sözügedən reytinqə dünyanın 106 ölkəsi üzrə 1500-dən çox universitet daxil edilib.


Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi · Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi · QS World University Rankings

QS Dünya Universitetlərinin Reytinqində
Azərbaycan universitetlərinin son 5 il (2022–2026) üzrə nəticələri

3 universitet TOP 800-də (2025-ci ildə 1 idi)
7 universitet TOP 1000-də (2025-ci ildə 6 idi)
10 Azərbaycan universiteti reytinqdə təmsil olunur

| № | Ali təhsil müəssisəsi | 2022 | 2023 | 2024 | 2025 | 2026 |
|---|---|---|---|---|---|---|
| 1 | Bakı Dövlət Universiteti | 1001-1200 | 1001-1200 | 951-1000 | 688 | 565 |
| 2 | Azərbaycan Dövlət İqtisad Universiteti | 1001-1200 | 1001-1200 | 1001-1200 | 801-850 | 634 |
| 3 | Azərbaycan Dövlət Neft və Sənaye Universiteti | – | 1201-1400 | 1001-1200 | 851-900 | 711-720 |
| 4 | Azərbaycan Texniki Universiteti | – | – | – | 851-900 | 801-850 |
| 5 | Xəzər Universiteti | – | – | – | 951-1000 | 801-850 |
| 6 | Bakı Mühəndislik Universiteti | – | – | – | 901-950 | 851-900 |
| 7 | Azərbaycan Memarlıq və İnşaat Universiteti | – | – | – | 1001-1200 | 951-1000 |
| 8 | ADA Universiteti | – | – | – | 1201-1400 | 1001-1200 |
| 9 | Sumqayıt Dövlət Universiteti | – | – | – | 1001-1200 | 1001-1200 |
| 10 | Azərbaycan Dövlət Pedaqoji Universiteti | – | – | – | – | 1201-1400 |

Dünyanın 106 ölkəsi üzrə 8000-dən artıq ali təhsil müəssisəsinin qiymətləndirildiyi reytinqə ümumilikdə 1504 universitet daxil edilib

## Nazir müavini BDU-nun “Məzun günü” tədbirində iştirak edib

**İyunun 12-də Milli Gimnastika Arenasında Bakı Dövlət Universitetinin (BDU) "Məzun günü" tədbiri keçirilib. Əvvəlcə Milli Müdafiə Universitetinin Hərbi İnstitutunun orkestrinin ifasında Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**






Tədbiri açıq elan edən BDU-nun rektoru Elçin Babayev əvvəlcə məzunları təbrik edib, onlara uğurlar arzulayıb. Rektor bildirib ki, 107 il əvvəl cəmi iki fakültə, 44 nəfərlik professor-müəllim heyəti və 1094 tələbə ilə fəaliyyətə başlayan BDU bu gün regionun aparıcı ali təhsil müəssisələrindən birinə çevrilib. 25 mindən artıq tələbənin təhsil aldığı, 1500 nəfərlik professor-müəllim heyətinin çalışdığı ali təhsil müəssisəsi kimi BDU təkcə ölkəmizdə deyil, regionun aparıcı universiteti kimi sürətlə inkişaf edir. Bakı Dövlət Universiteti hər zaman öz missiyasına sadiq qalaraq cəmiyyətə savadlı, vətənpərvər, məsuliyyətli və təşəbbüskar gənclər bəxş edib. Bu gün də bu missiya davam edir.

Sonra universitet tələbələrinin ifasında BDU-nun himni səsləndirilib.

Çıxış edən elm və təhsil nazirinin müavini İdris İsayev bildirib ki, bu il ölkəmizin ali təhsil müəssisələrini 63 mindən artıq tələbə bitirir. Onlardan 6 mindən çoxu Bakı Dövlət Universitetinin məzunudur. Nazir müavini qeyd edib ki, ölkəmizdə təhsildə insan kapitalının inkişafına ciddi diqqət yetirilir: “Ölkə başçısı tərəfindən müəyyən edilmiş siyasətin prioritet istiqamətlərindən biri də məhz təhsil və insan kapitalıdır. Ali təhsilin əlçatanlığı və əhatə dairəsi artırılıb, məzmunu təkmilləşdirilib, beynəlxalq rəqabətliliyi gücləndirilib. 2025-ci ilin göstəricisinə görə, 9 ali təhsil müəssisəsi beynəlxalq reytinqlərdə təmsil olunub. Onların 6-sı TOP-1000-likdə yerləşib. Təhsil tariximizdə ilk dəfə olaraq Bakı Dövlət Universiteti 688-ci sıra ilə beynəlxalq reytinqdə təmsil olunub. Ümid edirəm ki, ali təhsil müəssisələrimizin bu göstəriciləri növbəti illərdə daha da yaxşılaşacaq”.

İdris İsayev vurğulayıb ki, hazırda ali təhsil müəssisələrinə il ərzində təxminən 78 min tələbə qəbul edilir. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı” çərçivəsində hər il 500-ə yaxın istedadlı gənc bakalavriat, magistratura, doktorantura səviyyəsində xarici nüfuzlu ali təhsil müəssisələrində təhsil almaq imkanı qazanır. Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə ölkəmizdə beynəlxalq ikili diplom proqramlarının sayının səkkizə çatdırılması nəzərdə tutulub. Hazırda altı proqram fəaliyyət göstərir.

Milli Məclis sədrinin müavini Rafael Hüseynov öz növbəsində qeyd edib ki, bir əsrdən artıq tarixə malik olan Bakı Dövlət Universiteti ölkənin ictimai-siyasi, elmi və mədəni həyatında hər zaman aparıcı rol oynayıb. Azərbaycanı dünyada tanıdan, onu inkişaf etdirən ən böyük qüvvə onun savadlı, vətənpərvər övladlarıdır. Bu övladların böyük bir hissəsi dünən də, bu gün də, sabah da Bakı Dövlət Universitetində yetişəcək.

Çıxış edən mədəniyyət naziri Adil Kərimli bildirib ki, BDU Azərbaycan elminin və təhsilinin flaqmanı hesab olunur. Bu ali təhsil müəssisəsi bütövlükdə Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Qədim və zəngin Azərbaycan mədəniyyətini təmsil edən BDU ölkənin elmi və mədəni xəzinəsinə mühüm töhfələr verib. Ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetini "Azərbaycan xalqının milli sərvəti" adlandırıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət elm və təhsil siyasətinin uğurla icrasında Bakı Dövlət Universitetinin böyük xidmətləri var.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva ölkəmizin ilk ali təhsil müəssisəsi olan BDU-nun hazırda Azərbaycan elminin, təhsilinin və ictimai fikir tarixinin ən nufuzlu mərkəzlərindən biri olduğunu deyib. O qeyd edib ki, bu ali təhsil ocağı yalnız yüksəkixtisaslı mütəxəssislər yetişdirməklə kifayətlənmir, gənclərdə vətənpərvərlik ruhunu, dövlətçilik təfəkkürünü, qanuna hörmət hissini, insan ləyaqətinə ehtiramını və cəmiyyət qarşısında məsuliyyət duyğusunu formalaşdırır.

Digər çıxışçılar da məzunları təbrik edib, onlara şəxsi və iş həyatlarında uğurlar arzulayıblar.

Tədbirdə Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) yüksək olan və xüsusi fəallığı ilə seçilən 34 məzuna sertifikat və hədiyyələr təqdim edilib.

Tədbir konsert proqramı ilə davam edib.

## “Danışır təcrübə”

### Layihəsinin XI görüşünün qonağı Məleykə Abbaszadə olub






Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə həyata keçirilən “Danışır təcrübə” layihəsinin XI görüşü baş tutub. Budəfəki görüşün qonağı Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə olub.

Görüş çərçivəsində Məleykə Abbaszadə “İnsan potensialının qiymətləndirilməsi və dəyişikliklərə adaptasiya” mövzusunda çıxış edib.

Məleykə Abbaszadə müasir dövrdə insan potensialının müəyyənləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində tətbiq olunan yanaşmalar, istedadın aşkarlanması mexanizmləri, eləcə də qiymətləndirmə sistemlərinin cəmiyyətin dəyişən tələblərinə uyğunlaşdırılması məsələlərinə toxunub. Görüş zamanı süni intellekt texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə qiymətləndirmənin gələcəyi, insan faktorunun əhəmiyyəti və texnologiyalarla insan təfəkkürü arasında balansın qorunması məsələləri də müzakirə olunub.

**Süni intellekt texnologiyalarının sürətlə inkişaf etdiyi bir dövrdə qiymətləndirmənin gələcəyi, insan faktorunun əhəmiyyəti və texnologiyalarla insan təfəkkürü arasında balansın qorunması məsələləri də müzakirə olunub.**

Məleykə Abbaszadə həmçinin qiymətləndirmə sistemlərinin gələcək inkişaf istiqamətləri, beynəlxalq təcrübədə tətbiq olunan innovativ yanaşmalar və qlobal tendensiyalar barədə fikirlərini iştirakçılarla bölüşüb.

Görüş interaktiv müzakirələrlə davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, “Danışır təcrübə” layihəsi Elm və Təhsil Nazirliyinin təşəbbüsü ilə həyata keçirilir.

Layihə çərçivəsində keçirilən görüşlər əməkdaşların davamlı inkişafının təmin edilməsinə, liderlik və idarəetmə bacarıqlarının artırılmasına, eləcə də müasir çağırışlara uyğun kadr potensialının formalaşdırılmasına xidmət edir.

# SERTİFİKATLAŞDIRMA: DAVAMLI İNKİŞAF

## Təhsilverənlərin imtahan həyacanı, uğur sevinci



**17 iyun tarixindən etibarən dövlət ümumi təhsil müəssisələrində çalışan təhsilverənlərin sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsinə start verilib. İyunun 25-nə qədər davam edəcək sertifikatlaşdırma prosesində Azərbaycan dili, rus dili, Azərbaycan dili və ədəbiyyat, rus dili və ədəbiyyat, fransız dili, alman dili, təsviri incəsənət, musiqi, fizika, kimya, biologiya, riyaziyyat, coğrafiya, informatika, ingilis dili, ibtidai sinif, tarix, fiziki tərbiyə və texnologiya fənlərini tədris edən təhsilverənlər iştirak edəcəklər.**

## "Sertifikasiya müəllimlər üçün böyük fürsətdir"

**18 iyun tarixində Quba-Xaçmaz Regional Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələri üzrə 133 nəfər təhsilverən sertifikatlaşdırılma prosesində iştirak edib. Sertifikatlaşdırmanın test imtahanı mərhələsinin ikinci günündə təsviri incəsənət, musiqi, kimya, fizika və biologiya fənləri üzrə tədris aparan təhsilverənlər cəlb olunub. Onların arasında yüksək nəticələri ilə seçilənlər də olub.**

"Azərbaycan müəllimi" uğurlu nəticə göstərən təhsilverənlərlə yaxından tanış olub.







### "Sertifikasiya müəllimin peşəkarlaşması üçün çox gözəl vasitədir"

Sertifikasiya nəticəsi 59 bal olan Yaqut Əmrahova Xaçmaz rayon Arzu qəsəbə tam orta məktəbində təsviri incəsənət fənnini tədris edir. 12 ildir müəllim işləyən Y. Əmrahova sualların çətinliyini orta qiymətləndirir: "İmtahana normal, intizamla hazırlaşdım. Sertifikasiya imtahanı müəllimin işində peşəkarlaşması üçün çox gözəl bir vasitədir. Müəllimlərə tövsiyəm - işlərinin peşəkarı olsunlar ki, gələcəyə savadlı kadrlar yetişdirə bilsinlər".

### "Sertifikasiyanın əhəmiyyəti müəllimin öz üzərində daim işləməsində, yeniliklərə açıq olmasındadır"

Quba rayon S. Şahbalayev adına Hacıhüseynli kənd tam orta məktəbinin musiqi müəllimi Gülşən Səmədova 58 bal nəticə göstərib.

18 il iş stajına malik müəllim qeyd edir ki, müntəzəm öz üzərində işləyərək imtahana hazırlaşıb: "Suallar arasında asan da var idi, çətin də. Sertifikasiyanın əhəmiyyəti müəllimin öz üzərində daim işləməsində, yeniliklərə açıq olmasındadır. Müəllimlərə tövsiyəm: öz fənlərini sevsinlər ki, onu daha da yaxşı həm bilsinlər, həm də kiməsə ötürməyi bacarsınlar".

### "Hazırlaşan müəllim üçün imtahan çətin olmaz"

Lamiyə Mürsəliyeva 57 bal toplayıb. Xaçmaz şəhər İ. Qayıbov adına 3 nömrəli tam orta məktəbin təsviri incəsənət müəllimi işləyir.

Onun sözlərinə görə, imtahan çox yaxşı keçib:

"Hazırlaşan müəllim üçün imtahan çətin olmaz. Sertifikasiyanın əhəmiyyətini onda görürəm ki, müəllimlərin öz peşəkar bacarıqlarını qiymətləndirməsi və zəif tərəflərini görüb inkişaf etdirməsi üçün böyük bir fürsətdir. Həmkarlarıma həyəcanı kənara qoyub öz biliklərinə güvənmələrini tövsiyə edirəm".

### "Sertifikasiya müəllimlərə öz üzərlərində daha çox işləməyə stimul yaradır"

Çinarə Əkbərova 49 dəqiqə ərzində 56 bal toplamağa müvəffəq olub.

O, Siyəzən şəhər C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbinin musiqi müəllimidir. 6 ildir pedaqoji fəaliyyətlə məşğul olan gənc müəllimin sözlərinə görə, suallar təhsilverənlərin peşəkar bilik və bacarıqlarını qiymətləndirməyə yönəlib:

"Diqqətli hazırlaşan müəllimlər üçün sualların cavablandırılması mümkün idi. Asan, orta, çətin səviyyəli, düşündürücü suallar da var idi. İmtahana müntəzəm və planlı şəkildə hazırlaşırdım. Mövzuları təkrar edir, müəyyən vaxt ərzində testlər işləyirdim. Belə olduqda həm sualları tez cavablandırmaq, həm də vaxta qənaət etmək olur".

Çinarə müəllimin fikrincə, sertifikasiya müəllimlərin bilik və bacarıqlarını inkişaf etdirməyə, öz üzərlərində daha çox işləməyə stimul yaradır. Eyni zamanda təhsilin keyfiyyətinin yüksəlməsinə xidmət edir.

"Müəllimlərə müntəzəm hazırlaşmağı, vaxtdan səmərəli istifadə etməyi və öz üzərlərində davamlı işləməyi tövsiyə edərdim".

**Lamiyyə ƏLİMƏRDANOVA,**
**Abşeron-Xızı və Quba-Xaçmaz üzrə regional təmsilçi**



## Şərqi Zəngəzur müəllimləri yüksək nəticə göstəriblər

**Sertifikasiyanın ikinci günündə Şərqi Zəngəzur regionu üzrə 167 nəfər müəllim imtahanda iştirak edib.**

"Azərbaycan müəllimi" bu dəfə də yüksək nəticə göstərən bir neçə müəllimin fikirlərini öyrənib.

Mirvari Əlibəyova Böyük Qayıdışın ilk cığırı, ilk səsi olan Cocuq Mərcanlı kəndində Novruz Aslanov adına Cocuq Mərcanlı kənd tam orta ümumtəhsil məktəbində təsviri incəsənət müəllimi kimi fəaliyyət göstərir. 57 bal toplayan Mirvari müəllim imtahanın rahat keçdiyini deyir:

"İmtahana ciddi hazırlaşmışdım. Qazandığım bu nəticə yuxusuz gecələrimin, uzunmüddətli yorğunluğumun əvəzi idi. Nə imtahandan əvvəl, nə də imtahan zamanı həyəcanım var idi. Şükür istədiyimi əldə etdim.

Növbəti yüksək nəticə göstərən Zəngilan rayon 22 nömrəli məktəbin təsviri incəsənət müəllimi Aysu İsmayılovadır. O da 58 bal toplayıb.

"İmtahana girməmişdən əvvəl bilirdim və özümdən əmin idim ki, mən 50-dən çox bal toplayacağam. Nəyə görə? Çünki mən bunun üçün çox çalışdım, çox ciddi hazırlaşdım, məsuliyyətlə yanaşdım bu sertifikasiyaya və əmin idim ki, öz fənnimdən bütün suallara cavab verəcəyəm. İki səhvim oldu, o da ki, kurikulumdandır. Mənə elə gəlir ki, sertifikasiyaya ciddi, məsuliyyətlə yanaşan hər bir müəllim uğur əldə edə bilər".

Aysel Qasımlı da 58 bal toplayan müəllimlər sırasındadır. Naxçıvanlı müəllim hazırda Laçın rayon Sədi Fərmanlı adına Kamallı kənd məktəbində fəaliyyət göstərir. "Bu il sertifikasiya imtahanına cəlb olunmuşam və burada yüksək nəticə əldə etmişəm. İmtahanda iştirak edən müəllimlərə tövsiyə kimi məsləhət etmək istəyirəm. Vərəqə nə yazmısınızsa diqqətlə kompüterə də köçürün. Yəni mən bu səhvləri etməsəydim tam balı toplayacaqdım. Bu da həyəcandan olub. Digər müəllim yoldaşlarıma demək istəyirəm ki, həyəcandan azad olsunlar, uğura gedən yolda rahat şəkildə addımlasınlar ki, tam nəticəni əldə edə bilsinlər".

Goranboyda yerləşən Kəlbəcər rayon 100 nömrəli orta məktəbin təsviri incəsənət müəllimi Xəlilova Gülçin də yüksək nəticəsinə görə sevinir. 58 bal toplayan Gülçin müəllim sevincini belə bölüşür:

"Sertifikasiya müəllimi hansısa yoxlama mexanizmi deyil, məsuliyyətin, davamlı inkişafın, özünə tələbkarlığın bir göstəricisidir. Təhsil fəaliyyətimdə bakalavrlıqdan doktoranturaya qədər məsuliyyət, tələbkarlıq və ən əsası da özünəinam mənim üçün vacib olub. Nəticəm mənə onu göstərdi ki, təkmilləşmə heç vaxt bitmir. Həmkarlarıma davamlı öyrənmə, özlərinə inam, pedaqoji fəaliyyətlərində uğurlar arzulayıram".

Laçın rayon 11 nömrəli tam orta ümumtəhsil məktəbində təsviri incəsənət müəllimi Mehrivari Günel 58 bal topladığı üçün sevincli, həm də həyəcanlıdır!

"Sertifikasiya imtahanı bir müəllimə maaş artımından əlavə, öz biliyini ölçmə, öz üzərində işləmək imkanı verir. Ötən il MİQ imtahanında 89, bu gün isə sertifikasiya imtahanında 58 bal topladım. İmtahan rahat və uğurlu keçdi".

**Rəmziyyə HƏSƏNOVA,**
**Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi**

## Sertifikasiyanın könüllüləri





**Müəllimlik yalnız peşə deyil, həm də davamlı öyrənmə, inkişaf və cəmiyyət qarşısında məsuliyyət tələb edən şərəfli bir missiyadır. Müasir dövrdə təhsildə keyfiyyətin artırılması, müəllimlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən sertifikasiya prosesi də bu inkişafın mühüm tərkib hissəsinə çevrilib.**

"Azərbaycan müəllimi" bu yaxınlarda Naxçıvanda təhsilverənlərin sertifikatlaşdırma prosesinin ikinci dövriyyəsi üzrə test imtahanlarında könüllü iştirak edərək yüksək bal toplayan müəllimlərlə həmsöhbət olub.

Uzun illər təhsil sahəsində çalışan müəllimlərin şəxsi təcrübələri göstərir ki, bilik və zəhmətə arxalanan müəllim üçün hər bir qiymətləndirmə yeni uğurların başlanğıcıdır.

### "Topladığım nəticə gələcək fəaliyyətim üçün əlavə stimul dur"

Şərur şəhər 2 nömrəli tam orta məktəbin 61 yaşlı fizika-riyaziyyat müəllimi Əminə Əsgərova isə imtahandan 56 bal toplayıb. O, 2012-ci ilidə "Əməkdar müəllim" fəxri adına layiq görülüb. Deyir ki, göstərdiyi nəticə onun üçün sevindirici olmaqla yanaşı, uzun illər ərzində qazandığı bilik və təcrübənin göstəricisi olub:

"Sertifikasiya prosesi mənə bir daha göstərdi ki, müəllim daim öyrənməli, yenilənməli və öz üzərində işləməlidir. Topladığım nəticəni gələcək fəaliyyətim üçün əlavə stimul hesab edirəm. Sertifikasiya prosesində böyük məmnuniyyətlə iştirak etmişəm. Hesab edirəm ki, öz bilik və bacarığına inanan müəllim heç nədən qorxmamalıdır. Məhz buna görə də sertifikasiya prosesinə müsbət yanaşmışam və bu imtahanın müəllimlərin inkişafına xidmət etdiyini düşünürəm. İmtahan zamanı təqdim olunan suallar müəllimlərin gündəlik fəaliyyətində istifadə etdikləri bilikləri əhatə edirdi. Mən imtahana böyük ruh yüksəkliyi ilə qatıldım və hesab edirəm ki, müəllim öz biliyinə güvənirsə, imtahandan çəkinməsinə ehtiyac yoxdur".

Sertifikasiyanın üstünlüklərini isə belə izah edir:

"Məncə, sertifikasiyanın ən böyük üstünlüyü müəllimlərə bilmədikləri və ya kifayət qədər mənimsəmədikləri mövzuları göstərməsidir. Bəzən elə düşünürük ki, hər şeyi bilirik, lakin hazırlıq prosesi və imtahan bizə yeni biliklər qazandırır. Hətta imtahandan sonra da bəzi mövzuları yenidən araşdırmaq, daha dərindən öyrənmək istəyi yaranır. Bu isə müəllimin peşəkar inkişafına müsbət təsir göstərir. Gələcəkdə sertifikasiyada iştirak edəcək müəllimlərə tövsiyəm budur ki, öz biliklərinə güvənsinlər, məsuliyyətlə hazırlaşsınlar və imtahandan qorxmasınlar. Sertifikasiya müəllimlərin özlərini daha da inkişaf etdirmələrinə, yeni biliklər əldə etmələrinə və peşəkar səviyyələrini yüksəltmələrinə kömək edir".

### "Savadından arxayın olan müəllim sertifikasiyadan qorxmamalıdır"

Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin 62 yaşlı ibtidai sinif müəllimi Rəna Rzayeva isə imtahandan 56 bal toplayıb. 41 ildir ki, müəllim işləyir.

Bu gün yetişdirdiyi şagirdlərdən onunla eyni məktəbdə müəllim işləyir. Deyir ki, indi müəllimlər üçün hər cür şərait yaradılıb. Bacarıqlı olan irəli gedir:

"Sertifikasiyanı çox müsbət qiymətləndirirəm. Çünki sertifikasiya olmayanda müəllimlər arasında fərqləndirmə aparmaq çətin idi. Hər kəs özünü yaxşı müəllim hesab edirdi. İlk dəfə sertifikasiyada 45 bal topladım. Amma bu nəticə məni qane etmədi. Ürəyimdə deyirdim ki, kaş bir dəfə də imtahan olaydı, bir az da hazırlaşardım və daha yüksək bal toplayardım. Bu dəfə də imtahan xəbəri çıxanda dedim ki, mən də iştirak edəcəyəm. Çox adam dedi ki, niyə özünü stresə salırsan, niyə həyəcan keçirirsən. Mən isə dedim ki, yox, burada qorxulu heç nə yoxdur. Mən ömrümü müəllimliyə həsr etmişəm. Özümə məqsəd qoymuşdum ki, 50 balı keçim. Düşünürdüm ki, bu, mənim son şansımdır. Bu il də birinci sinif götürsəm, dörd ildən sonra pensiyaya çıxacağam və artıq sertifikasiyada iştirak etməyəcəyəm".

Müəllim deyir ki, imtahan çox şəffaf təşkil olunmuşdu, suallar da rahat idi:

"Belə düşünürəm ki, o sualları bilməyib kəsilən varsa, deməli, öz üzərində daha çox işləməlidir. İbtidai sinif müəllimi olan hər bir müəllim həmin sualları cavablandıra bilər. Gənc müəllimlərə də tövsiyəm budur ki, öz üzərlərində işləsinlər və müəllimlik peşəsinə sevgi ilə yanaşsınlar. Müəllim daim inkişaf etdikcə həm şagirdin, həm valideynin, həm də cəmiyyətin hörmətini qazanır. Savadından arxayın olan müəllim sertifikasiyadan qorxmamalıdır. Həm də maddi cəhətdən də müəllimlərə dəstək olur".



**Aytən YUSİFOVA,**
**Naxçıvan Muxtar Respublikası üzrə təmsilçi**

# ADPU-nun prorektoru Oksford Universitetində beynəlxalq liderlik təlimində iştirak edib




**Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) elm və innovasiyalar üzrə prorektoru professor Asəf Zamanov dünyanın nüfuzlu ali təhsil müəssisələrindən biri olan Oksford Universitetində keçirilən “Liderlik bacarıqları” (Leadership Skills) beynəlxalq təlim proqramında iştirak edib.**

Almaniya, Azərbaycan, Böyük Britaniya, İtaliya, Kanada, Nigeriya, Pakistan, Polşa və digər ölkələrin ali təhsil müəssisələrinin rəhbərlərinin, alimlərin, nüfuzlu şirkət rəhbərləri və mütəxəssislərin qatıldığı proqram çərçivəsində müasir liderlik modelləri, strateji idarəetmə, effektiv liderlik və kommunikasiya, komanda quruculuğu, innovasiyaların idarə olunması, qərarvermə mexanizmləri və təşkilati inkişaf məsələləri üzrə Oksford Universitetinin Davamlı Təhsil Departamenti (Oxford Lifelong Learning, Department for Continuing Education, University of Oxford) tərəfindən təşkil olunan 5 günlük nəzəri və praktik sessiyalarda ali təhsil müəssisələrinin, həmçinin digər qurumların inkişaf strategiyaları, elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi, universitetlərin beynəlxalq reytinqlərdə mövqelərinin gücləndirilməsi, innovasiya ekosisteminin formalaşdırılması və qlobal akademik əməkdaşlıq imkanları ətrafında geniş fikir mübadiləsi aparılıb. İştirakçılar beynəlxalq ekspertlərin təqdimatlarını dinləməklə yanaşı, qrup işləri və interaktiv müzakirələrdə fəal iştirak ediblər.

Proqramı uğurla başa vuran professor Asəf Zamanov müvafiq sertifikatlarla (Personal Presence for Managers, Effective Leadership through Emotional İntelligence; Workplace Psychology: Boosting Performance and Wellbeing) təltif olunub. Bu sertifikatlar müasir liderlik və idarəetmə sahəsində beynəlxalq səviyyədə tanınan bilik və bacarıqların təsdiqi olmaqla yanaşı, universitetdə elmi və innovativ fəaliyyətin daha da təkmilləşdirilməsi istiqamətində mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, ADPU-da elm və innovasiya sahəsində həyata keçirilən islahatların əsas məqsədlərindən biri universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi, qabaqcıl dünya təcrübəsinin öyrənilməsi və tətbiqi, elmi tədqiqatların keyfiyyətinin yüksəldilməsi və innovativ fəaliyyətin təşviqidir. Oksford Universitetində keçirilən beynəlxalq təlim proqramında iştirak universitetin strateji inkişaf hədəflərinə uyğun olaraq insan kapitalının gücləndirilməsi və müasir idarəetmə yanaşmalarının tətbiqi baxımından əhəmiyyət daşıyır. Prorektorun bu nüfuzlu proqramda iştirakı ADPU-nun beynəlxalq akademik mühitdə təmsilçiliyinin gücləndirilməsi, universitetdə liderlik mədəniyyətinin inkişafı və elm-innovasiya fəaliyyətinin beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi istiqamətində atılan səmərəli addımlardan biri kimi qiymətləndirilir.

Sonda professor Asəf Zamanov müəllifi olduğu “Kolebanie plastin iz kompozitnoqo materiala s iskrivlennımi strukturami” adlı monoqrafiyanı (Baku: Glm, 2013, 192 str.) Oksford Universitetinin kitabxanasına hədiyyə edib.

# Qarabağ Universitetində Oksford standartlı yeni proqram yaradılıb

**Qarabağ Universitetində "İqtisadiyyat" ixtisası üzrə innovativ bakalavr proqramının hazırlanması məqsədilə Oksford Universitetinin aparıcı iqtisadçı alimləri ilə əməkdaşlıq həyata keçirilib.**



Əməkdaşlıq çərçivəsində Oxford Universitetinin iqtisadçı alimləri Qarabağ Universitetinin Biznes və iqtisadiyyat fakültəsinin akademik heyəti ilə birgə fəaliyyət göstərərək beynəlxalq standartlara uyğun, müasir yanaşmalara əsaslanan İqtisadiyyat (BSc Economics) proqramının hazırlanmasında iştirak ediblər.

Hazırlanmış proqramın yekunlaşdırılması və akademik heyətə təqdim olunması məqsədilə Oksford Universitetinin nümayəndələri Qarabağ Universitetinə səfər ediblər. Səfər çərçivəsində Biznes və iqtisadiyyat fakültəsinin müəllimləri ilə birgə seminarlar və interaktiv iş sessiyaları təşkil olunub.

Sessiyalar zamanı proqramın strukturu, fənn məzmunu və tədris metodologiyası geniş şəkildə təqdim edilərək müzakirə olunub. Bu prosesin əsas məqsədi proqramın universitetin akademik heyəti tərəfindən dərindən mənimsənilməsi və effektiv tətbiqinə hazırlığın təmin edilməsi olub.

Yeni iqtisadiyyat proqramı müasir əmək bazarının və qlobal təhsil mühitinin tələblərinə uyğun olaraq data analitikası, süni intellekt və proqramlaşdırma kimi istiqamətləri də əhatə edir.

Bu əməkdaşlıq Qarabağ Universitetinin beynəlxalq akademik tərəfdaşlıqlar vasitəsilə tədris keyfiyyətinin yüksəldilməsi və tələbələrə qlobal səviyyədə rəqabətqabiliyyətli təhsil imkanlarının təqdim olunması istiqamətində atdığı mühüm addımlardan biri hesab olunur.

**Şölə ƏLİYEVA**

# "Heydər Əliyev - Azərbaycan elmi və təhsili" dərs vəsaitinin təqdimatı keçirilib

**Bakı Avrasiya Universitetində pedaqogika üzrə fəlsəfə doktoru, dosent Könül Faiq qızı Mahmudova və tarix üzrə fəlsəfə doktoru, dosent Sevil Şivəxan qızı Bəhrəmovanın həmmüəllifi olduqları “Heydər Əliyev - Azərbaycan elmi və təhsili” adlı dərs vəsaitinin təqdimat mərasimi keçirilmişdir.**





Tədbirdə BAAU-nun professor-müəllim və tələbə heyəti, Təhsil İnstitutu və ADPU-nun əməkdaşları, kitabın elmi redaktorları - filologiya üzrə fəlsəfə doktoru, dosent Faiq Şahbazlı, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Əlyənnağı Məhərrəmov, dil üzrə redaktor Sevil Cavadova, ali təhsil müəssisələrinin alim və müəllimləri, universitet, ümumtəhsil müəssisələrinin əməkdaşları, tələbələr və digər qonaqlar iştirak etmişlər.

Təqdimat mərasimini Bakı Avrasiya Universitetinin Ümumi fənlər kafedrasının baş müəllimi Məleykə Adıgözəlova açaraq nəşrin elmi və pedaqoji əhəmiyyətindən danışmışdır.

Bakı Avrasiya Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri, rektorun müşaviri Şəfahət Əliyev qeyd etmişdir ki, dərs vəsaiti Ümummilli Lider Heydər Əliyevin elm və təhsil siyasətinin öyrənilməsi, bu sahədə formalaşdırdığı strateji baxışların gənc nəslə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

Kitabın elmi redaktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Faiq Şahbazlı çıxışında vəsaitin məzmunu, strukturu və elmi-metodiki üstünlükləri haqqında ətraflı məlumat vermişdir. O vurğulamışdır ki, nəşrdə Heydər Əliyevin Azərbaycan elm və təhsilinin inkişafına verdiyi töhfələr sistemli şəkildə araşdırılmış, bu istiqamətdə həyata keçirilən siyasətin əsas məqamları elmi əsaslarla təqdim edilmişdir.

Bakı Avrasiya Universitetinin Elm və innovasiya sektorunun müdiri, hüquq üzrə fəlsəfə doktoru, dosent Vüsalə Həsənova universitetdə elmi fəaliyyətin təşviqi istiqamətində görülən işlərdən bəhs etmiş, belə nəşrlərin və təqdimatların akademik mühitin inkişafına mühüm töhfə verdiyini qeyd etmişdir. O, həmçinin həmmüəllif dosent Sevil Bəhrəmovanın universitetin elmi həyatındakı fəallığını, gənc tədqiqatçılara və kafedra əməkdaşlarına göstərdiyi dəstəyi xüsusi vurğulamışdır.

Tədbirdə çıxış edən kitabın rəyçilərindən biri, pedaqogika üzrə fəlsəfə doktoru, dosent Əlyənnağı Məhərrəmov dərs vəsaitinin elmi və metodiki baxımdan əhəmiyyətini qeyd etmiş, onun gələcək müəllim kadrlarının hazırlanmasında faydalı mənbə olacağını bildirmişdir.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Biologiya və onun tədrisi texnologiyası kafedrasının müdiri, biologiya elmləri doktoru, dosent, Əməkdar müəllim Anaxanım Yusifova isə çıxışında dosent Könül Mahmudovanın elmi-pedaqoji fəaliyyətinə yüksək qiymət vermiş, onun məsuliyyətli və peşəkar alim-pedaqoq kimi formalaşdığını, təhsil sahəsindəki xidmətlərinin böyük əhəmiyyət daşıdığını vurğulamışdır. ADPU-nun əməkdaşları dosent Səfərova Elnurə, dosent, Abdullayeva Təranə Ulu Öndər haqqında dərs vəsaitinin yazılmasının böyük məsuliyyət tələb etdiyini qeyd edib fəaliyyətlərinin davamlı olmalarını arzuladılar.

Tədrisin təşkili departamentinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Natella Quliyeva, Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müdiri Elmira Kekeç Məmmədova, İqtisadiyyat kafedrasının müdiri Vüsalə Nağıyeva, Nərimanov rayonu 212 nömrəli tam orta məktəbin direktoru Sevil Cavadova, eləcə də filologiya üzrə fəlsəfə doktoru, dosent Vüsalə Əsədova, Araz Şamilov, Cəmil Dadaşov, Anar Bəhrəmov, Samir Cəfərov və digər çıxışçılar müəlliflərin elmi-pedaqoji fəaliyyətindən, təhsil və metodika sahəsindəki xidmətlərindən bəhs etmiş, yeni nəşrin Azərbaycan təhsil ədəbiyyatına mühüm töhfə olduğunu bildirmişlər.

Ümumi fənlər kafedrasının əməkdaşları - tarix üzrə fəlsəfə doktoru, dosent Jalə İsmayılova və müəllim İmmi Hüseynova da müəlliflərin elmi fəaliyyəti və şəxsi keyfiyyətləri haqqında xoş fikirlərini bölüşərək onların yeni yaradıcılıq uğurunu yüksək qiymətləndirmişlər.

Tədbirin sonunda müəlliflər çıxış etmişlər. Dosent Sevil Bəhrəmova dərs vəsaitinin hazırlanması prosesi, mövzuların seçilməsi, təlim nəticələrinin, sual və tapşırıqların işlənməsi zamanı aparılan müzakirələr barədə məlumat vermişdir. O qeyd etmişdir ki, dosent Könül Mahmudova ilə əməkdaşlıqları uzun illərə söykənir. Müəlliflər daha əvvəl “Həyat bilgisi” fənni üzrə kurikulumun və dərsliklərin hazırlanmasında da birgə fəaliyyət göstərmiş, bu əməkdaşlıq uğurlu nəticələr vermişdir.

Həmmüəllif dosent Könül Mahmudova çıxışında vəsaitin hazırlanmasının böyük məsuliyyət tələb etdiyini qeyd etmiş, onun Azərbaycan Dövlət Pedaqoji Universitetində tədris olunan müvafiq fənnin proqramına uyğun hazırlandığını və tələbələr üçün etibarlı elmi-metodiki mənbə kimi nəzərdə tutulduğunu vurğulamışdır. O, gələcəkdə də yeni elmi və metodiki nəşrlər üzərində işləyəcəklərini bildirmiş və tədbirin təşkilində əməyi olan hər kəsə təşəkkür etmişdir.

Sonda tədbirin moderatoru Məleykə Adıgözəlova müəllifləri təbrik etmiş, onlara gələcək elmi fəaliyyətlərində uğurlar arzulamışdır.

Qeyd edək ki, “Heydər Əliyev - Azərbaycan elmi və təhsili” dərs vəsaiti Ümummilli Lider Heydər Əliyevin elm və təhsil siyasətinin öyrənilməsi baxımından mühüm elmi-metodiki əhəmiyyətə malikdir. Nəşr ali təhsil müəssisələrinin tələbələri, magistrantları, doktorantları, müəllimləri və tədqiqatçıları üçün dəyərli mənbə olmaqla yanaşı, Azərbaycan təhsil tarixinin mühüm mərhələlərinin araşdırılmasına da töhfə verir.

# Praktik layihələr peşəkar bacarıqları formalaşdırır

**Son illərdə təhsil sahəsində həyata keçirilən islahatlar çərçivəsində tədris prosesində nəzəri biliklərlə praktiki fəaliyyətin inteqrasiyasına xüsusi diqqət yetirilir. Kompetensiya əsaslı təhsil yanaşması tələbələrin yalnız bilik əldə etməsini deyil, həmin bilikləri real situasiyalarda tətbiq edə bilməsini də nəzərdə tutur. Bu baxımdan tələbələrin layihə əsaslı fəaliyyətə cəlb olunması onların peşə hazırlığının gücləndirilməsində mühüm rol oynayır.**




Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecində “Kompüter şəbəkələri və şəbəkə inzibatçılığı” ixtisası üzrə təhsil alan tələbələr tərəfindən hazırlanmış “3 mərtəbəli inzibati binanın şəbəkə topologiyası” layihəsi də bu qəbildən olan uğurlu təcrübələrdən biridir.

Azərbaycan Dövlət Pedaqoji Kollecinin Riyaziyyat-informatika fənn birləşməsinin sədri və təcrübə rəhbəri Nüşabə Seyidin təşəbbüsü ilə pilot layihə kimi həyata keçirilən bu iş tələbələrin auditoriyada əldə etdikləri nəzəri biliklərin praktik fəaliyyətlə əlaqələndirilməsinə, onların peşə səriştələrinin formalaşdırılmasına və müasir informasiya texnologiyaları sahəsində tətbiqi bacarıqlarının inkişafına xidmət edib. Layihənin uğurla reallaşdırılmasında kollecdə yaradılmış müasir tədris mühiti və innovativ təşəbbüslərə göstərilən dəstək də mühüm rol oynayıb. Kollecin direktoru Amalya Sezginin rəhbərliyi ilə tələbələrin praktik hazırlığının gücləndirilməsinə, onların layihə və tədqiqat yönümlü fəaliyyətlərə cəlb olunmasına xüsusi diqqət yetirilir.

Layihənin hazırlanmasında əsas məqsəd tələbələrin kompüter şəbəkələrinin qurulması, idarə olunması və təhlükəsizliyinin təmin edilməsi sahəsində əldə etdikləri nəzəri bilikləri praktik müstəvidə tətbiq etmələrinə şərait yaratmaq olub. İş prosesində üçmərtəbəli inzibati bina üçün müasir tələblərə cavab verən şəbəkə infrastrukturu layihələndirilib, şəbəkənin fiziki və məntiqi strukturu hazırlanıb, təhlükəsizlik və nəzarət sistemlərinin inteqrasiyası nəzərdə tutulub.

Layihə üzərində iş komanda şəklində təşkil edilib. Tələbələr müxtəlif istiqamətlər üzrə araşdırmalar apararaq şəbəkə inzibatçılığının mühüm komponentlərini öyrənib və tətbiq ediblər. Şəbəkə təhlükəsizliyi, IP ünvanlaşdırılması, avadanlıqların konfiqurasiyası, məlumat ötürülməsi sistemləri, videomüşahidə texnologiyaları və biometrik giriş sistemləri layihənin əsas istiqamətlərini təşkil edib.

Layihənin rəhbəri Mehdi Zərbəliyev olub. O, layihənin ümumi koordinasiyasını həyata keçirib, şəbəkə topologiyasının çertyojunu hazırlayıb və istifadə olunacaq avadanlıqların siyahısını tərtib edib. Layihənin vizual hissəsi üzərində çalışan Günay Tarverdiyeva isə binanın üçölçülü modelini hazırlayaraq layihənin qrafik təqdimatını yaradıb.

Tələbələr tərəfindən hazırlanmış modeldə server və şəbəkə avadanlıqlarının yerləşdirilməsi, mərtəbələrarası əlaqələrin təşkili, təhlükəsizlik sistemlərinin tətbiqi, videomüşahidə vasitələrinin inteqrasiyası və biometrik girişə nəzarət mexanizmləri öz əksini tapıb. Bununla yanaşı, şəbəkə avadanlıqlarının konfiqurasiyası, məlumat mübadiləsinin təşkili və şəbəkənin xarici müdaxilələrdən qorunması ilə bağlı həllər də layihədə nəzərdə tutulub.

Layihənin hazırlanması tələbələrə yalnız texniki biliklərini möhkəmləndirmək imkanı yaratmayıb. Onlar eyni zamanda komanda şəklində işləmək, fəaliyyətin planlaşdırılması, problemlərin təhlili, qərar qəbul edilməsi və təqdimat bacarıqlarını da inkişaf etdiriblər. Bu baxımdan layihə tədris prosesində nəzəri biliklərlə praktikanın vəhdətinin təmin olunmasına xidmət edən uğurlu nümunələrdən biri hesab edilə bilər.

Təhsil sistemində praktik yönümlü layihələrin həyata keçirilməsi tələbələrin peşə səriştələrinin formalaşmasına, innovativ düşüncə tərzinin inkişafına və əmək bazarının tələblərinə uyğun mütəxəssis kimi yetişmələrinə mühüm töhfə verir. “3 mərtəbəli inzibati binanın şəbəkə topologiyası” layihəsi də tələbələrin əldə etdikləri bilik və bacarıqları real şəraitə yaxın modellər üzərində tətbiq etmələrinin uğurlu nümunəsi kimi qiymətləndirilə bilər.

Layihənin hazırlanmasında Mehdi Zərbəliyev, Günay Tarverdiyeva, Elmira Məlikli, Sara Məmmədova, Şahin Abbasov, Bəyimxanım Hüseynova, Zərifə İsmayılova və Gülbacı Sadıqzadə iştirak ediblər.

**Nüşabə SEYİD,**
**ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin Riyaziyyat-İnformatika fənn birləşməsinin sədri**

# 4 şagirdimiz Avropa Fizika Olimpiadasından medalla qayıtdı

**Azərbaycan məktəbliləri beynəlxalq elm arenasında növbəti böyük uğurlarını qazanıblar. İsveçdə keçirilən Avropa Fizika Olimpiadasında (EuPhO) ölkəmizi təmsil edən şagirdlər vətənə 4 bürünc medalla qayıdıblar. 12-16 iyun tarixlərində baş tutan bu mötəbər bilik yarışında istedadlı gənclərimiz yüksək nəticə göstərərək bayrağımızı dalğalandırıblar.**




**Olimpiadada bürünc medal qazanan şagirdlərimiz:**

**Bəxtiyar Ağayev** — Sumqayıt şəhər Təbiət elmləri təmayüllü gimnaziyanın 11-ci sinif şagirdi;

**Məhəmməd Cəfərli** — Bakı şəhər Texniki-humanitar liseyin 11-ci sinif şagirdi;

**Murad Xəlil** — Bakı şəhər Bakı Türk Liseyinin 11-ci sinif şagirdi;

**Raiq Babazadə** — Bakı şəhər Fizika, riyaziyyat və informatika təmayüllü liseyin 11-ci sinif şagirdi.

Qeyd edək ki, 2018-ci ildən bəri müntəzəm olaraq təşkil edilən Avropa Fizika Olimpiadası qitənin ən nüfuzlu elm müsabiqələrindən biri hesab olunur. Bu il keçirilən turnirdə dünyanın 41 ölkəsindən 200 ən güclü şagird qalibiyyət uğrunda mübarizə aparıb.

**Şölə ƏLİYEVA**

## "AZƏRBAYCAN MÜƏLLİMİ"

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar:** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1052, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya:** № 022327 **İndeks:** 0003

**Tiraj:** 15775 **Sifariş:** 803

**Məsul növbətçi:** S.Kərimova

## "100 illik vəsiyyətin izi ilə"

# Qarabağ Universitetinin alimi Səmərqənddə keçirilən beynəlxalq türkoloji qurultayda çıxış edib




**Qarabağ Universitetinin Elm şöbəsinin müdiri, filologiya elmləri doktoru Elçin İbrahimov 5—6 iyun tarixlərində Özbəkistan Respublikasının Səmərqənd şəhərində keçirilən beynəlxalq türkoloji qurultayda iştirak edib.**

"100 illik vəsiyyətin izi ilə" şüarı altında təşkil olunan və Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr edilən tədbirdə E. İbrahimov "Birinci Türkoloji Qurultaydan bu günə Türk Dünyasında dil və əlifba məsələləri" mövzusunda məruzə ilə çıxış edib.

Məruzəçi bildirib ki, 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultayın gündəliyində ən geniş müzakirə olunan məsələlərdən biri əlifba problemi olub. Onun sözlərinə görə, Qurultayda bu məsələ ətrafında dörd fərqli mövqeni təmsil edən qrup formalaşmışdı: ərəb əlifbasının saxlanılmasının tərəfdarları, ərəb qrafikasının islahatını müdafiə edənlər, latın qrafikasına keçidi dəstəkləyənlər və kiril əlifbasının tətbiqini təklif edənlər. Uzun və prinsipial müzakirələrdən sonra latın qrafikalı əlifbaya keçidlə bağlı qərarın böyük səs çoxluğu ilə qəbul edildiyini qeyd edən E.İbrahimov, səsvermədə 101 nümayəndənin bu qərarın lehinə səs verdiyini diqqətə çatdırıb.

Elçin İbrahimov çıxışında Qurultayın qəbul etdiyi qərarların sonrakı dövrdə Türk dünyasında baş verən dil və əlifba proseslərinə təsirindən də bəhs edib. O, müxtəlif türk respublikalarında həyata keçirilən əlifba islahatlarını tarixi ardıcıllıqla təhlil edərək, XX əsr ərzində bir çox türk xalqlarının iki dəfə əlifba dəyişməsinin ciddi nəticələr doğurduğunu vurğulayıb. Məruzəçi qeyd edib ki, bu dəyişikliklər təkcə yazı sisteminin yenilənməsi ilə məhdudlaşmayıb, həm də mədəni yaddaşa, elmi irsin mənimsənilməsinə, nəsillərarası əlaqələrin qorunmasına və ortaq informasiya məkanının formalaşmasına təsir göstərib.

Məruzədə Türk dünyasında ortaq əlifba ideyasının tarixi köklərinə də toxunulub. Bildirilib ki, Birinci Türkoloji Qurultayda müzakirə edilən məsələlərdən bir çoxu bu gün də öz aktuallığını qoruyur və ortaq əlifba istiqamətində atılan addımlar həmin ideyaların davamı kimi qiymətləndirilə bilər.

Çıxışının sonunda Elçin İbrahimov Türk Dövlətləri Təşkilatına üzv ölkələrin ortaq əlifba istiqamətində əldə etdikləri son nailiyyətləri xüsusi qeyd edib. O vurğulayıb ki, ortaq türk əlifbasının qəbul olunması və bu əlifba əsasında ilk nəşrlərin məhz Birinci Türkoloji Qurultayın 100 illiyi ərəfəsində işıq üzü görməsi tarixi və simvolik baxımdan mühüm əhəmiyyət daşıyır. Məruzəçi bunu yüz il əvvəl Bakıda irəli sürülmüş ideyaların müasir dövrdə yeni mərhələyə qədəm qoymasının göstəricisi kimi dəyərləndirib və gələcək fəaliyyətin daha sistemli, əlaqələndirilmiş və ortaq strategiya əsasında həyata keçirilməsinin vacibliyini vurğulayıb.

# Etibarsız sayılır

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası** tərəfindən 2024-cü ildə Tofiqzadə Ülviyyə Afiq qızına verilmiş A-029166 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Tibb Kolleci** tərəfindən 2016-cı ildə Cəmiyeva Sevinc Gülbala qızına verilmiş AA-072261 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 49 nömrəli tam orta məktəbi 1996-cı ildə bitirmiş Əkbərova Bənövşə Salman qızına verilmiş A-056694 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dəniz Yolları Məktəbi** tərəfindən 1991-ci ildə Qasımov Azər Təyyub oğluna verilmiş HT-763111 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Lənbəran kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2022-ci ildə bitirmiş İsgəndərova Pəri Tural qızına verilmiş C-664410 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Beynəlxalq Kolleci** tərəfindən 2008-ci ildə Babayeva (Məmmədova) Nərmin Nizami qızına verilmiş BB-II-076033 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Aşağı Nüvədi qəsəbə tam orta ümumtəhsil məktəbi 2014-cü ildə bitirmiş Əhmədova Lalə Cavid qızına verilmiş A-356556 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Alıuşağı kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Ələkbərova (Əliyeva) Jalə Polad qızına verilmiş A-468135 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göyçay şəhər** akademik Z.Bünyadov adına 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2024-cü ildə bitirmiş Həsənov Xatir Ayaz oğluna verilmiş E-692703 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2023-cü ildə Hüseynova Səbinə Pənah qızına verilmiş AM-054128 nömrəli magistr fərqlənmə diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Yevlax şəhər** 2 nömrəli tam orta məktəbin axşam sinfini 2002-ci ildə bitirmiş Məmmədova Sevinc Rəcəb qızına verilmiş A-106163 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan İnşaat Mühəndisləri Universiteti** tərəfindən 2002-ci ildə İsmayılov Anar Cəmiyyət oğluna verilmiş A-116057 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 19 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2021-ci ildə bitirmiş İmanov Əli Heydər oğluna verilmiş C-512094 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 151 nömrəli tam orta ümumtəhsil məktəbi 2012-ci ildə bitirmiş Mustafayev İbrahim İlham oğluna verilmiş A-103056 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Qayıdış qəsəbə 5 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Rəşidzadə Nicat Zülfüqar oğluna verilmiş A-141547 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Muxax kənd 1 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Ömərova Ramilə Ramiz qızına verilmiş B-555627 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Dilman kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 1992-ci ildə bitirmiş Əzizov Ramil Davud oğluna verilmiş 476010 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə 1994-cü ildə verilmiş 141 nömrəli arayışı itdiyi üçün etibarsız sayılır.

**Dövlət Sərhəd Xidmətinin Akademiyası** tərəfindən 2014-cü ildə Məmmədov Şamil Fərhad oğluna verilmiş AN-023008 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 159 nömrəli tam orta məktəbin nəzdində 6 nömrəli axşam-qiyabi məktəbin IX sinfini 2001-ci ildə bitirmiş Pekarskayte Olqa Gennadiyevna qızına verilmiş B-414711 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Saatlı rayon** Şirinbəyli kənd tam orta ümumtəhsil məktəbi 2001-ci ildə bitirmiş Bayraqdarova (Qədirova) Validə Abdulqədir qızına verilmiş A-567791 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Saatlı şəhər** 1 nömrəli ümumi orta ümumtəhsil məktəbin IX sinfini 2002-ci ildə bitirmiş Əhmədova (Ocaqova) Firunə Gülağa qızına verilmiş B-523073 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Zərdab 124 nömrəli Texniki Peşə Məktəbi** (Zərdab Peşə Liseyi) tərəfindən 1995-ci ildə Cavadov Fizuli Yusif oğluna verilmiş A-0994847 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutu** tərəfindən 1987-ci ildə Ruşanova Kəmalə Xudu qızına verilmiş ПВ-006783 nömrəli diplom və internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Qazax Peşə Liseyi** tərəfindən 1997-ci ildə Bayramov Qoşqar Sahib oğluna verilmiş AB-015409 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1999-cu ildə bitirmiş Fərəcov Kənan Yusif oğluna verilmiş A-366817 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universiteti** tərəfindən 1996-cı ildə Rəhmətullayev Sərdar Balakərim oğluna verilmiş AB-I-014643 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon** Muradxanlı kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2009-cu ildə bitirmiş Abbaslı Dilqəm Qulu oğluna verilmiş A-840088 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 272 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Nağıyeva Aytən Anar qızına verilmiş E-651114 nömrəli tam orta təhsil haqqında fərqlənmə attestatı itdiyi üçün etibarsız sayılır.

**Abşeron rayon** Saray qəsəbə 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2021-ci ildə bitirmiş Məmişov Nicat Namiq oğluna verilmiş E-430060 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Türkoba kənd tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Şıxəliyeva Gülnar Novruz qızına verilmiş B-297845 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Dəmirçi kənd ümumi orta ümumtəhsil məktəbin IX sinfini 1985-ci ildə bitirmiş Kişiyeva Qızılgül Firudin qızına verilmiş 774316 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Sərkar kənd tam orta məktəbi 2000-ci ildə bitirmiş Əmiraslanova Lalə Nadir qızına verilmiş A-449353 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Əhmədbəyli kənd tam orta məktəbin IX sinfini 2003-cü ildə bitirmiş Anadol (Əliyeva) Yeganə Arif qızına verilmiş B-658276 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Samux rayon** Qarayeri qəsəbə 1 nömrəli məktəb-liseyi 2013-cü ildə bitirmiş Məhərrəmov Zirəddin Ələddin oğluna verilmiş A-246998 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** 267 nömrəli məktəb-liseyi 2012-ci ildə bitirmiş Gülalova (İsmayılova) Nuranə Arif qızına verilmiş A-113381 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2012-ci ildə Hüseynova Leyla İnqilab qızına verilmiş B-260474 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 2022-ci ildə bitirmiş Şəmsiyev Elgiz Elnur oğluna verilmiş E-471075 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Xızı rayon** Baxışlı kənd orta ümumtəhsil məktəbin IX sinfini 2022-ci ildə bitirmiş Əliyev Ərhan Etibar oğluna verilmiş C-6758 60 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Universitetinin nəzdində İqtisadiyyat və Humanitar Kolleci** tərəfindən 2024-cü ildə Ələkbərova Həcər Elsevər qızına verilmiş AA-218470 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 51 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Sadıqlı Tərgül Sarvan qızına verilmiş E-262683 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy rayon** Moruxlu kənd tam orta məktəbi 2012-ci ildə bitirmiş İsgəndərov Zəfər Nazim oğluna verilmiş A-166046 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Nərimanov rayonu 193 nömrəli tam orta məktəbin nəzdindəki qiyabi qrupu 2019-cu ildə bitirmiş Həsənov Bahadur Mərdan oğluna verilmiş E-195816 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ukrayna Milli Mülki Müdafiə Universiteti** tərəfindən 2013-cü ildə Həsənov Əziz Hüseyn oğluna verilmiş ДІ-036183 nömrəli bakalavr diplomuna əlavə itdiyi üçün etibarsız sayılır.

**Yevlax rayon** Xaldan kənd kompleks tam orta məktəbi 1980-ci ildə bitirmiş İlyasova Lübadə İslam qızına verilmiş 446771 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 5 nömrəli tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş İsmayılov Ruslan Raməddin oğluna verilmiş E-601928 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2008-ci ildə bitirmiş Məmmədova Şəhanə Abbas qızına verilmiş B-542531 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Həsənova Yəmən Qüdrət qızına verilmiş A-484983 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl şəhər** 3 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 1993-cü ildə bitirmiş Sadıqova Gülxar Əli qızına verilmiş A-793351 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.